No: 01 2026
https://doi.org/10.64400/ea26-01-34
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCANIN ŞİMAL SƏRHƏD RAYONLARINDA ƏHALİNİN NİKAH VƏZİYYƏTİ

**Gülnarə ABDULLAYEVA**
AR ETN Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: gulnare-78@mail.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:** ailə, əhali, nikah, boşanma, qadın, kişi.

**XÜLASƏ**
Məqalədə dünyada və Azərbaycanın şimal sərhəd rayonlarında nikah və boşanmaların müasir vəziyyətindən bəhs olunur. Əldə olunan statistik məlumatlar və aparılan tədqiqatlar nəticəsində dünyada və ölkəmizdə nikah və boşanmaların müasir vəziyyətləri təhlil edilmişdir. Hər bir ölkənin davamlı iqtisadi inkişafı və sosial rifahı yalnız təbii sərvətlərlə deyil, eyni zamanda onun mövcud demoqrafik vəziyyətindən, yəni əhalinin təkrar istehsalı prosesi ilə əlaqəli olan insan resurslarından da asılıdır. Çünki demoqrafik proseslər sosial-iqtisadi amillərin təsiri altında dəyişikliyə məruz qalır və əhalinin təbii artımında özünü göstərir. Əhalinin təbii artımına cəmiyyətdə baş verən siyasi və iqtisadi dəyişikliklər, o cümlədən insanların həyat tərzi, həyat şəraiti, sosial infrastrukturla təminatı, mədəni dəyərlərin qorunub saxlanılması və digər bir çox başqa amillər təsir göstərir. Eyni zamanda nikah və boşanmalar da demoqrafik amilləri formalaşdıran təbii artımın azalmasında və ya çoxalmasında mühüm rol oynayır.

## GİRİŞ

Müasir dövrdə nikahların sayı azalmaqda, boşanmalar isə artmaqda davam edir. Bu dəyişikliklər bir sıra amillərlə-urbanizasiya, qadınların iqtisadi müstəqilliyi, təhsil səviyyəsinin yüksəlməsi, ailə dəyərlərindəki dəyişikliklər və hüquqi mühitin liberallaşması ilə sıx bağlıdır. Ailə fərdlə cəmiyyət arasında əlaqə, sosial icmanın ilkin formasıdır. Bulatova və Abrarovaya görə nikah ailənin formalaşmasının təməlidir. Nikahın məqsədi ailə qurmaq və uşaq sahibi olmaqdır və buna görə də nikah həyat yoldaşı və valideyinin hüquq və vəzifələrini müəyyən edir (Булатова & Абрарова, 2024).

Nikah, kişi və qadın arasında tarixən müəyyən edilmiş və sosial cəhətdən tənzimlənən münasibət forması olan unikal bir sosial institutdur. Ailə daxilində insanın ilkin sosiallaşması baş verir və kollektiv varlığa ehtiyac formalaşdırılır. Lakin təəssüf ki, müasir dövrdə boşanma və onunla əlaqəli hər şey ailə-nikah məsələlərində ilk yerli yeri tutur. Boşanma da öz növbəsində bir çox özünəməxsus xüsusiyyətlərə malikdir və buna görə də bu məsələ elm adamları tərəfindən geniş şəkildə araşdırılır. Klassik rus mülki hüquq alimi A. İ. Zaqorovski bu mövzuda yaxşı yazıb və qeyd edib ki, "boşanma məsələsi haqlı olaraq qanunvericilikdə ən çətin məsələlərindən biri hesab olunur. Həqiqətən də, qanunverici onu həll edərkən, birincisi, nikahın mahiyyət etibarilə ömürlük bir birlik olduğunu və buna görə də onun pozulmasının bir növ anomaliya olduğunu; ikincisi, boşanmaların uşaqların taleyinə xüsusilə mənfi təsir göstərdiyini və üçüncüsü, boşanmada boşanmış valideynlərdən hansının uşaqlarına sahib olacağını müəyyən etmək xüsusilə çətindir"(Загоровский, 1909).

Azərbaycanda da son illərdə nikah və boşanma statistikasına nəzər saldıqda ciddi dəyişikliklərin olduğunu görmək mümkündür. Bu məqalədə nikah və boşanma anlayışlarının tarixi-sosialoji aspektləri, mövcud statistik vəziyyət, səbəblər və nəticələr araşdırılır. Eyni zamanda Azərbaycanın şimal sərhəd rayonlarında da əhalinin nikah vəziyyəti tədqiq olunmuşdur.Azərbaycanın strateji əraziləri hesab edilən Balakən, Zaqatala, Qax, Şəki, Qəbələ, Oğuz, Xaçmaz, Qusar inzibati rayonlarının sahəsi 11,4 min kv.km, əhalisi 905,3 min (2024-ci il) nəfərdir. Şimaldan Rusiya Federasiyası, şimal-qərbdən Gürcüstan Respublikası ilə həmsərhəd olan bu region özünün milli-etnik tərkibi ilə də respublikamızın digər rayonlarından fərqlənirlər.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın əsasını Azərbaycan Respubliksı Dövlət Statistika Komitəsinin əhali və boşanma nisbətləri üzrə statistik məlumatları, eləcə də nikah və boşanma nisbətləri üzrə beynəlxalq metrik

sistemlər və məlumat bazaları, bu sahədə tədqiqat aparmış alimlərin elmi əsərləri və müəllifin şəxsi tədqiqatı təşkil edir. Məqalənin hazırlanmasında həmçinin demoqrafiya sahəsində tədqiqat aparan xarici və yerli alimlərin əsərlərindən istifadə olunmuşdur.

**MÜZAKİRƏ**

Ailənin əsasını qadın və kişi arasında olan nikah birliyi təşkil edir. Dünyada nikah və boşanmalar qanunvericiliklə tənzimlənir. Bir sıra ölkələrin qanunvericiliyinə nəzər saldıqda məlum olur ki, nikah yaşı qadınlarda 9-12 yaşdan 20 yaşa qədər, kişilərdə isə 14 yaşdan 22 yaş aralığında dəyişir (Şerbakov at al., 2017). Qanun yerli adət-ənənələrə görə bəzi istisnaları da nəzərə alır. Avropa ölkələrində nikah yaşı qadınlarda və kişilərdə ya bərabər olur, ya da bəzilərində kişilərin nikah yaşı daha yuxarı olur. Məsələn, Macarıstanda və Polşada nikah yaşı qadınlar üçün 16, kişilər üçün 18 müəyyən edilmişdir. İngilislərdə 16 yaşına çatan hər kəs, Fransada isə 15 yaşında qadınların, 18 yaşında kişilərin nikaha girməsinə icazə verilir. Asiya ölkələrinə gəldikdə Yaponiyada 18 yaşında kişilər, 16 yaşında qadınlar Çində 22 yaşında kişilər ( bu dünya ölkələri arasında nikah üçün ən yüksək yaş həddidir), 20 yaşında qadınlar, Hindistanda 21 yaşında kişilər, 18 yaşında qadınlar nikaha girə bilər.

Amerika qitəsində məsələn, ABŞ-da minimal nikah yaşı ştatlara görə dəyişir. Kişilər üçün bu 14-18 yaş, qadınlar üçün 13-17 yaş müəyyən edilmişdir. Kanadada (Kvebek əyalətində) minimal nikah yaşı qadınılar üçün 12-16 yaş, kişilər üçün 14-16 yaş, Argentina, Kolumbiya və Peruda kişilər 16, qadınlar 14, Venesuela, Paraqvay, Çili və Ekvadorda minimum yaş kişilərdə 14, qadınlarda 12 yaş müəyyən edilmişdir.

Afrika ölkələrinə gəldikdə isə burada Misir və Əlcəzairdə minimal nikah yaşı kişilərdə 18, qadınlarda 16, Nigeriya və Keniyada qadınlarda 9, kişilədə 6-18 yaş müəyyən edilmişdir. Avstraliyada minimal nikah yaşı kişilər üçün 18, qadınlar üçün 16-dır. Ölkələrin əksəriyyətində nikah yaşı çatmayanların nikaha daxil olmaları üçün valideyinlərin icazəsi tələb olunur.

Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən edilmişdir. Üzürlü səbəblər olduqda nikaha daxil olmaq yaşı 1 ildən çox olmayaraq azaldıla bilər (Ailə məcəlləsi, 2011).

Hazırda bir çox ölkələrdə olduğu kimi, tədqiq etdiyimiz Azərbaycanın şimal sərhəd rayonlarında da əhalinin nikah səviyyəsini 1995-2023-cü illər üzrə təhlil etsək görərik ki, azalma baş vermişdir. 1995-ci ildə nikah əmsalı əhalinin hər min nəfərinə 7,3 olmuşdursa, 2024-cü ildə bu azalaraq 4,5-ə düşmüşdür. Boşanmaların sayında isə əksinə artım baş vermişdir. Onların sayı 0,7-dən 1,6-ya yüksəlmişdir (cədvəl 1). Ən çox nikah 2005-ci ildə, hər min nəfərə 9,0, ən az isə 2020-ci ildə hər min nəfərə 3,3 qeydə alınmışdır. 2020-ci ildə nikah göstəricisinin aşağı olmağının əsas səbəbi bütün dünyada olduğu kimi Azərbaycanda da COVİD-19 pandemiyasının mövcud olmasıdır. Şimal sərhəd rayonlarında boşanma əmsalı isə ən çox 2023-cü ildə əhalinin hər min nəfərinə 1,7 nəfər olmuşdur.

Nikahların inzibati rayonlar üzrə əmsalına gəldikdə isə ən yüksək göstərici 2005 (hər 1000 nəfərə 10,5) və 2010-cu illərdə (hər 1000 nəfərə 10,2) Qəbələ rayonunda qeydə alınmışdır. Boşanma əmsalı isə 2019-cu ildə Oğuz inzibati rayonunda daha yüksək olmuşdur. Burada hər min nəfərə 2,2 boşanma qeydə alınmışdır. Azərbaycan Respublikasında nikah əmsalı ən yüksək 2005-ci ildə (hər 1000 nəfərə 8,5), boşanma əmsalı isə ən yüksək 2023, 2024-cü illərdə ( hər 1000 nəfərə 2,1) olmuşdur.

Şimal sərhəd rayonlarında nikah və boşanmaların 1995-2024-cü illər üzrə tendensiyasına baxsaq nikahın illər keçdikcə azalan, boşanmanın isə artan temp ilə davam etdiyini görmək mümkündür (Şəkil 1). Tendensiyanın bu cür davam etməsi bir neçə ildən sonra nikah və boşanmaların sayının bərabərləşməsinə gətirib çıxaracaq.




*Şəkil 1. Azərbaycanın şimal sərhəd rayonlarında 1995-2024-cü illər ərzində nikah və boşanmaların tendensiyası, (hər min nəfərə)*

Mənbə: ADSK, Azərbaycanın regionları-Bakı-2023, 2024.

*Cədvəl 1*

***Azərbaycanın şimal sərhəd rayonlarında rəsmi qeydə alınmış nikah və boşanmaların ümumi əmsalları, hər 1000 nəfərə***

| | 1995 | | 2000 | | 2005 | | 2010 | | 2015 | | 2019 | | 2020 | | 2021 | | 2023 | | 2024 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma | nikah | boşanma |
| Balakən | 6,3 | 0,4 | 4,6 | 0,3 | 7,4 | 0,8 | 8,1 | 0,8 | 7,4 | 1,2 | 6,0 | 1,5 | 2.8 | 1,4 | 5,1 | 1,5 | 5,0 | 1,9 | 4,3 | 1,4 |
| Qax | 8,3 | 0,5 | 5,7 | 0,3 | 8,4 | 0,8 | 7,4 | 0,5 | 7,9 | 0,8 | 6,4 | 1,0 | 2,9 | 1,1 | 6,1 | 1,2 | 5,0 | 1,9 | 4,5 | 1,2 |
| Qəbələ | 9,3 | 0,4 | 6,6 | 0,4 | 10,5 | 0,8 | 10,2 | 0,7 | 7,1 | 0,8 | 7,2 | 1,3 | 3,4 | 1,0 | 7,2 | 1,1 | 6,0 | 1,6 | 5,4 | 1,5 |
| Oğuz | 9,0 | 0,9 | 6,1 | 0,5 | 8,6 | 0,9 | 9,4 | 0,7 | 7,9 | 1,3 | 7,6 | 2,2 | 3,6 | 1,5 | 6,6 | 1,5 | 6,0 | 1,6 | 4,7 | 1,8 |
| Zaqatala | 6,0 | 0,5 | 6,1 | 0,5 | 9,8 | 0,8 | 7,9 | 0,8 | 6,9 | 1,1 | 6,5 | 1,4 | 3,4 | 1,5 | 5,6 | 1,3 | 4,9 | 1,5 | 3,9 | 1,5 |
| Şəki | 6,2 | 0,4 | 5,8 | 0,4 | 8,7 | 0,6 | 8,5 | 0,7 | 7,5 | 1,2 | 6,9 | 1,4 | 3,4 | 1,1 | 6,8 | 1,4 | 5,2 | 1,5 | 4,6 | 1,7 |
| Xaçmaz | 6,3 | 0,8 | 5,6 | 0,8 | 9,5 | 1,1 | 8,9 | 0,8 | 6,4 | 1,3 | 6,6 | 1,6 | 3,6 | 1,6 | 6,3 | 1,6 | 5,2 | 1,7 | 4,6 | 1,9 |
| Qusar | 7,1 | 1,3 | 5,3 | 0,8 | 9,2 | 1,4 | 10,0 | 1,3 | 6,6 | 1,2 | 5,3 | 1,6 | 3,3 | 1,4 | 5,2 | 1,2 | 4,7 | 1,6 | 4,3 | 1,8 |
| Şimal sərhəd rayonları | 7,3 | 0,7 | 5,7 | 0,5 | 9,0 | 0,9 | 8,8 | 0,8 | 7,2 | 1,1 | 6,6 | 1,5 | 3,3 | 1,3 | 6,1 | 1,4 | 5,3 | 1,7 | 4,5 | 1,6 |
| Azərbaycan Respublikası | 5,7 | 0,7 | 5,0 | 0,7 | 8,5 | 1,1 | 8,0 | 1,0 | 7,2 | 1,3 | 6,4 | 1,7 | 3,5 | 1,5 | 5,6 | 1,7 | 5,3 | 2,1 | 4,9 | 2,1 |

Əvvəllər ailə qurmaq ictimai gözləntiyə çevrildiyi halda müasir dövrdə fərdi seçimlər daha ön plana çıxır. Fərdi inkişaf, səyahət, sosial həyat, şəxsi azadlıqlar kimi meyarlar ailə qurmaqdan önə keçir. Gənclər ailə qurmaq qərarını daha düşünülmüş şəkildə və daha gec yaşlarda verirlər. Kişilər kimi qadınların da son dövrlərdə karyera qurmağa önəm vermələri nikah qərarının daha gec verilməsinə səbəb olur. Uyğun həyat yoldaşı axtarışı və qarşılıqlı gözləntilərin artması nəticəsində nikahların sayı azalmış, nikaha daxil olanların orta yaşı isə artmışdır.

Azərbaycan Respublikasında nikaha daxil olanların orta yaşına nəzər saldıqda 1990-ci ildən 2024-cü ilə qədər əldə etdiyimiz məlumatlarda bu göstəricilərin yüksəldiyini görmək mümkündür (cədvəl 2).

Cədvəl 2

***Azərbaycan Respublikasında rəsmi qeydə alınmış nikaha daxil olanların orta yaşı.***

| İllər | Nikaha daxil olanların orta yaşı | |
|---|---|---|
| | Kişilər | Qadınlar |
| 1990 | 27,4 | 24,3 |
| 1995 | 27,5 | 23,0 |
| 2000 | 28,4 | 23,6 |
| 2005 | 28,4 | 23,7 |
| 2010 | 27,9 | 23,4 |
| 2015 | 28,6 | 24,1 |
| 2020 | 30,0 | 25,2 |
| 2021 | 29,7 | 24,9 |
| 2022 | 29,8 | 24,9 |
| 2023 | 30,2 | 25,2 |
| 2024 | 30,2 | 25,1 |

*Mənbə:ARDSK, Azərbaycanın əhalisi-2024*

1990-1995-ci illərdə respublikamızda nikaha daxil olan kişilərin yaş həddi 27 idisə 2024-cü ildə bu göstərici 30-a yüksəlmişdir. Qadınların yaşında isə bir o qədər də dəyişiklik baş verməmişdir. Onların orta yaşı 0,8 yaş artaraq 24,3-dən 25,1-ə qalxmışdır. Orta yaş həddinin artması bir çox səbəblərdən baş verir. Bura iqtisadi problemlər, insanların həyat tərzi, sosial dəyərlər, təhsil və s. aid etmək olar. Müasir dövrdə gənclər arasinda aili təhsilə meylin artması magistr, doktorantura və digər ixtisasartırma mərhələləri gənclərin əmək bazarına daxil olmasını gecikdirir. Təhsilin uzanması həm iqtisadi, müstəqilliyin gecikməsinə, həm də ailə qurmaqla bağlı qərarların təxirə salınmasına səbəb olur. Bndan başqa karyera qurmaq, peşəkar təcrübə qazanmaq, sabit gəlir mənbəyi əldə etmək istəyi, işsizlik, mənzil problemi, yüksək yaşayış xərcləri və gələcək ailənin təminatı ilə bağlı narahatlıqlar kişilərin nikaha daxil olma yaşını artırır.

Dünya üzrə son illərin demoqrafik göstəricilərinə nəzər saldıqda aydın olur ki, respublikamızda olduğu kimi bir çox ölkələrdə də nikahların sayı azalıb, boşanmaların sayı isə artmışdır. Hər bir ailədə boşanma səbəbləri fərqli olur. Boşanma səbəbləri arasında maddi problemlər, cütlüklərin xarakter uyğunsuzluğu, mənzil problemləri, pis vərdişlər, ailədə uşağın olmaması kimi səbəblər üstünlük təşkil edir. Dünya ölkələrinin 2022-ci ildəki boşanma statistikasına nəzər salsaq görərik ki, ən az boşanma Şri-Lankada, ən çox isə Maldiv Respublikasında olmuşdur (cədvəl 3). Bu sirada 2-ci yeri Qazaxıstan, 3-cü yeri isə Rusiya tutur. Azərbaycan burada 22-ci, siyahıda olan 10 MDB dövləti arasında isə 8-ci yerdə qərarlaşıb.

*Cədvəl 3*

**Ölkələrin boşanma statistikaları, hər 1000 nəfərə**

*Mənbə: Research Economic İnstitute*

| | | |
|---|---|---|
| 1. Maldivlər-5,52 | 12. İran-2,1 | 23. İtaliya-1,4 |
| 2. Qazaxıstan-4,6 | 13. Fransa-1,9 | 24. Ermənistan-1,1 |
| 3. Rusiya-3,9 | 14. Niderland- 1,7 | 25. Özbəkistan-0,8 |
| 4. Belarus-3,7 | 15. Böyük Britaniya-1,7 | 26. Qətər-0,7 |
| 5. Belçika- 3,7 | !6. Almaniya-1,7 | 27. İrlandiya-0,7 |
| 6. Moldova-3,3 | 17. Yaponiya-1,7 | 28. BƏƏ-0,7 |
| 7. Çin-2,9 | 18. Dünyada-1,7 | 29. Car-0,6 |
| 8. ABŞ-2,7 | 19. Türkiyə-1,6 | 30. Peru-0,5 |
| 9. Gürcüstan- 2,1 | 20. Qığızıstan-1,4 | 31. Qvatemala-0,2 |
| 10. Kanada- 2,1 | 21. Tacikistan-1,4 | 32. Vyetnam-0,2 |
| 11. Koreya-2,1 | 22. Azərbaycan-1,4 | 33. Şri-Lanka-0,1 |

Şəhər əhalisi arasında boşanma intensivliyi kəndlərə nisbətən daha çoxdur. Boşanmaların intensivliyi evli insanların yaşından və ailədəki uşaqların sayından da asılı olur. Yaş artdıqca boşanmaların sayı aşağı düşür, ailədə uşaqların olması isə nikahı daha da möhkəmləndirir. Uşaqsız ailələr arasında boşanmalar daha çox olur. Boşanma göstəricilərinə ailə ənənələri də əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir dövrümüzdə nikahın pozulması daha çox qadınların təşəbbüsü ilə baş verir. Bir zamanlar boşanma halları nadirən olurdu və bu proses insanların qınaq mənbəyinə də çevrilirdi. Son illər isə bu belə deyil, hər il minlərlə ailə dağılır. Əldə etdiyimiz məlumatların təhlili göstərir ki, münasibətləri rəsmiləşdirmək istəyənlərin sayı azalıb, nikahı pozanların sayı isə çoxalıb. Bütün dünyada olduğu kimi Azərbaycanda da boşanma halları nikahın müəyyən bir dövründə və müəyyən yaş qrupunda daha çox olur. Tədqiqatlar göstərir ki, 5 ildən 9 ilə qədər evli olanlar daha çox boşanırlar.

Boşanmalar və qeyri-rəsmi nikahdan dünyaya gələn uşaqlar ailələrin dağılmasına, gələcəkdə nəslin artırılmasına (ailədə ikinci və ya üçüncü uşağın olmasına) birbaşa təsir edir. Kənd yerlərində qeyri-rəsmi nikahdan dünyaya gələn uşaqlar say etibarilə şəhər yerlərindən daha yüksəkdir. Bu erkən nikahların kənd yerlərində daha çox olması ilə əlaqədardır. Kənd yerlərində isə qız uşaqlarının erkən yaşlarında ailə qurmaları həm qanun pozuntusu, həm də gələcəkdə bir sıra digər problemlərin (ailənin sosial-iqtisadi vəziyyəti, təhsil və s.) yaranmasına səbəb olur (Abdullayeva, 2025).

## NƏTİCƏLƏR

Sonda deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olur ki, 1995-ci ildən 2024-cü ilə qədər olan dövrdə Azərbaycanın şimal sərhəd rayonlarında əhalı arasında nikaha daxil olanların sayı hər min nəfərə 2,8 nəfər azalmış, boşanmalar isə 1000 nəfərə 0,9 nəfər artmışdır. Bununla yanaşı Azərbaycan Respublikasında nikaha daxil olan qadın və kişilərin orta yaş həddi də yüksəlmişdir. Bu göstərici kişilərdə 2,8, qadınlarda isə 0,8 yaş artmışdır. Azərbaycanın bəzi bölgələrində hələ də erkən nikahlar mövcuddur. Ailə və qohum təzyiqi ilə qurulan evliliklər daha zəif təməl üzərində qurulduğu üçün boşanma riski yüksək ola bilir. Nikahların azalıb boşanmaların artmasını tək bir səbəblə əlaqələndirmək olmaz. Bu çoxfaktorlu və mürəkkəb bir prosesdir. Cəmiyyətin ümumi inkişaf tendensiyalarının və dəyişən sosial strukturların təzahürü, gender münasibətlərindəki yeni modellər bütün dünyada olduğu kimi ölkəmizdə də nikah və boşanmaların səviyyəsinə təsir edən əsas amillərdir.

Bu tədqiqatın nəticələri Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin nikah və boşanmaların ümumi vəziyyətini və buna təsir edən amilləri aşkara çıxarmışdır. Apardığımız tədqiqatlar və sorğular nəticəsində əldə edilən məlumatlara əsasən deyə bilərik ki, nikah və boşanmalara təsir edən əsas faktorlar aşağıdakılardır:

- İqtisadi (işsizlik, maddi çətinliklər, gəlir bərabərsizliyi);
- Təhsil səviyyəsi (təhsil səviyyəsi artdıqca nikaha daxil olma yaşı yüksəlir, lakin eyni zamanda tərəflər bir-birini yaxşı başa düşdüyü üçün boşanma riskini də azalda bilər);
- Sosial-mədəni (ənənəvi dəyərlər, ailə təzyiqləri və cəmiyyətin nikah və boşanma ilə bağlı yanaşması);
- Psixoloji və emosional (tərəflər arasında emosional uyğunluq, ünsiyyət, güvən və hörmət);
- Qanunvericilik və hüquqi (nikah və boşanma proseslərinin hüquqi asanlığı, aliment və uşaq hüquqları kimi məsələlər də qərarlara təsir edir)

## ƏDƏBİYYAT


1. Abdullayeva G.İ. (2025) Azərbaycanın şimal sərhəd rayonlarının demoqrafik və məskunlaşma problemləri. Bakı:Avtoreferat s.12.
2. Azərbaycan Dövlət Statistika Komitəsi (2025). Azərbaycanın əhalisi. Bakı:Narıncı, s.82-83
3. Azərbaycan Dövlət Statistika Komitəsi (2022). Azərbaycanın demoqrafik göstəriciləri. Bakı:

4. Azərbaycan Dövlət Statistika Komitəsi (2023). Azərbaycanın regionları. Bakı: Çaşıoğlu E.İ s. 400-423.
5. Azərbaycan Dövlət Statistika Komitəsi (2024). Azərbaycanın regionları. Bakı: Azmega group MMC, s. 659-714
6. Azərbaycan Respublikasının ailə məcəlləsi (2011), maddə 10.
7. Булатова Я. П., Абрарова З. Ф. (2024) Современные тенденции брака и развода в российском обществе. Социальная политика и социальное партнерство. 6, https://doi.org/10.33920/pol-01-2406-04
8. Economic Research İnstitute (2022). https://www.erieri.com/contact
9. Загоровский А. И. (1909), Курс семейного права. 2-е издание, Одесса: Типография Акционерного Южно-Русского Общества печатного дела, 73
10. Щербаков А. И, Мдинарадзе М.Ф, Назаров А.Д & Назарова Е.А (2017). Демография. Москва İnfra-M. стр. 61

## SUMMARY

## MARITAL PATTERNS OF THE POPULATION IN THE NORTHERN BORDER DISTRICTS OF AZERBAIJAN

**Gulnara Abdullayeva**

This article examines the current trends in marriage and divorce both globally and within the northern border regions of Azerbaijan. Drawing on statistical data and recent research findings, the study analyzes the current dynamics and patterns of marital and divorce rates in the world and in the national context. The sustainable economic development and social well-being of any country depend not only on its natural resources but also on the existing demographic situation, particularly the human resources associated with the population reproduction process. Demographic processes are subject to changes under the influence of socio-economic factors and are reflected in the natural population growth. Political and economic transformations in society, people's lifestyles and living conditions, access to social infrastructure, preservation of cultural values, and many other factors influence the natural increase of the population. At the same time, marriage and divorce also play a significant role in shaping demographic indicators, contributing either to the decline or to growth of natural population increase.

**Keywords:** *family, population, marriage, divorce, woman, man.*

## РЕЗЮМЕ

## БРАЧНОЕ СОСТОЯНИЕ НАСЕЛЕНИЯ В СЕВЕРНЫХ ПРИГРАНИЧНЫХ РАЙОНАХ АЗЕРБАЙДЖАНА

**Гюльнара Абдуллаева**

В статье рассматриваются современные тенденции браков и разводов как в мире, так и в северных приграничных районах Азербайджана. На основе статистических данных и результатов проведенных исследований проанализированы актуальные особенности и динамика брачно-разводных процессов как на глобальном, так и на национальном уровне. Устойчивое экономическое развитие и социальное благополучие каждой страны зависят не только от природных ресурсов, но и от существующей демографической ситуации, то есть от человеческих ресурсов, связанных с процессом воспроизводства населения. Демографические процессы изменяются под воздействием социально-экономических факторов и отражаются на естественном приросте населения. На естественный прирост населения, влияют политические и экономические изменения в обществе, образ жизни и условия жизни людей, обеспеченность социальной инфраструктурой, сохранение культурных ценностей и многие другие факторы.

При этом браки и разводы также играют важную роль и формировании демографических показателей, способствуя либо снижению, либо увеличению естественного прироста.

**Ключевые слова:** *семья, население, брак, развод, женщина, мужчина.*